UOT 398:801.6; 398:82.0; 801.8
https://doi.org/10.59849/2218-4783.2026.1.150

# NAXÇIVAN FOLKLOR İRSİNDƏ MÜASİR YUMOR, ONLARIN SOSİAL-MƏDƏNİ FUNKSİYALARI VƏ REGİONAL XÜSUSİYYƏTLƏRİ

# MODERN HUMOR IN THE FOLKLORE HERITAGE OF NAKHCHIVAN, ITS SOCIO-CULTURAL FUNCTIONS AND REGIONAL CHARACTERISTICS

**Çinarə Rzayeva***

Bu məqalə Naxçıvan bölgəsindən toplanan yeni və müasir lətifə nümunələrini araşdıraraq, onların funksiyalarını, formalarını və cəmiyyətlə əlaqəsini təhlil edir. Məlumdur ki, Naxçıvan bölgəsinə aid folklor mətnləri zəngin və çoxşaxəli olmaqla yanaşı, sosial dəyişikliklərə çevik reaksiya verən dinamik bir sahədir. Bu çərçivədə müasir və yeni lətifələr sadəcə əyləndirici element kimi deyil, həm də ictimai şüurun aynası, tənqidi düşüncənin daşıyıcısı kimi çıxış edir.

Eyni zamanda məqalədə müasir lətifə nümunələrini sosial-mədəni kontekstdə necə formalaşdığını, hansı cəmiyyət hadisələrinə reaksiya olaraq yarandığı və nə kimi funksiyalar yerinə yetirdiyi də araşdırılmışdır.

Məqalədə konkret lətifə nümunələri üzərində aparılan təhlillər göstərir ki, bu janr vasitəsilə cəmiyyətin aktual problemləri, regionun dialekt xüsusiyyətləri, məişət tərzi və ənənəvi dəyərləri qorunub saxlanılır. Bütün bunlar onların həm dil, həm də mədəniyyət baxımından əhəmiyyətini daha da artırır.

Məqalənin sonunda belə nəticəyə gəlinir ki, müasir Naxçıvan lətifələri xalqın dünyagörüşünü, yumor hissini və sosial münasibətlərə yanaşmasını əks etdirən canlı folklor nümunələridir. Bu baxımdan da onların toplanması, sistemləşdirilməsi və təhlili milli-mədəni irsin qorunması baxımından xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, bu lətifələr folklorun canlılığını, onun zamanla necə yeniləndiyini və xalqın yaradıcı potensialını da nümayiş etdirə bilir. Beləliklə, Naxçıvan bölgəsindən toplanan müasir və yeni lətifələr həm tarixi-mədəni yaddaşın daşıyıcısı, həm də sosial tənqidin incə forması kimi əhəmiyyətlidir.

**Açar sözlər:** *Naxçıvan, lətifə, yeni, folklor, gülüş, müasir, sosial.*

This article examines newly collected examples of modern anecdotes from the Nakhchivan region, analyzing their functions, forms and relationship with society. It is well known that the folklore texts of the Nakhchivan region are rich and multifaceted, representing a dynamic field that responds swiftly to social change. In this context, modern and contemporary anecdotes serve not only as entertaining elements but also as mirrors of public consciousness and carriers of critical thinking.

The article also investigates how modern anecdotes are formed within a socio-cultural context, which social events they respond to, and what functions they fulfill. Analysis of specific anecdotal examples demon-strates that this genre preserves the region's dialectal characteristics, everyday lifestyle, traditional values and reflec-tions on current social issues, all of which enhance their significance both linguistically and culturally.

The article concludes that modern anecdotes from Nakhchivan are vibrant examples of folklore reflecting the people's worldview, sense of humor and approach to social relations. From this perspective, collecting, systematizing and analyzing these anecdotes holds special importance for the preservation of national and cultural heritage. At the same time, these anecdotes demonstrate the vitality of folklore, its renewal over time and the creative potential of the people. Thus, the modern and contemporary anecdotes collected from the Nakhchivan region are significant both as carriers of historical and cultural memory and as a subtle form of social critique.

**Keywords:** *Nakhchivan, anecdote, modern, folklore, humor, contemporary, social.*

* AMEA Naxçıvan Bölməsi. Filologiya üzrə fəlsəfə doktoru, dosent, E-mail: cinarerzayeva@yahoo.com.tr
ORCİD: 0000-0003-0655-9342

## GİRİŞ

Hər bir xalqın folkloru onun mənəvi kimliyi, söz varlığı, keçmişi, həyata baxışı, yaşayış tərzi barədə məlumat əldə etməyə yetər. Çünki folklorumuzda xalqımızın milli sərvəti cəmləşib. Folklor mətnləri təkcə keçmişimizi yaşadan xəzinə deyil, həmçinin müasir dövrdə də mühüm əhəmiyyət daşıyan yaddaş kodudur. Buna görə də belə xəzinənin itib-batmaması üçün onu toplamaq lazımdır. Xalqımızın bitib-tükənməyən, zəngin sərvəti olan, folklor materialları hər zaman toplayıcılarını sevindirir. Çünki bu toplama prosesləri yeni nümunələrin ortaya çıxmasına, xalqımızın mənəvi tarixi haqqında gizli qatların aşkarlanmasına səbəb olur.

Folklor nümunələrinin ilk harada yarandığını müəyyən etmək bir qədər çətin olsa da, biz çalışdıq ki, Naxçıvan bölgəsində daha çox işlənən yeni örnəkləri seçib tədqiqata cəlb edək.

Məlumdur ki, Naxçıvan bölgəsi həm qədim tarixə, özünəməxsus dialekt və mədəni xüsusiyyətlərə sahibdir, həm də folklorun canlı şəkildə yaşadığı regionlardan biridir. Bu bölgədə xalq yaradıcılığı formalarından, lətifə janrı da müasir dövrdə dinamik inkişaf edən sahələrdən biridir.

Yeni folklor nümunələri necə yaranır? Sualına cavab olaraq deyə bilərik ki, müəyyən hadisələrin baş verməsindən, inkişafdan, yenilikdən və s. bu kimi səbəblərdən ortaya yeni folklor örnəkləri çıxır. Qeyd edək ki, qədim folklor janrları əsas rol oynasa da, müasir yumoristik rəvayətlər artıq müasir texnologiyanı, cəmiyyətdə baş verən dəyişiklikləri və siyasi ironiyanı özündə birləşdirərək formalaşır və yayılır. Bu məqalənin məqsədi ənənəvi komik irs ilə müasir hazırcavab ifadələr arasındakı əlaqəni araşdırmaq və regional kimliyin gülüş vasitəsilə necə qorunub saxlanıldığını göstərməkdir. Bu baxımdan komik folklorun daxili mexanizmini nəzərə almaq vacibdir. Tədqiqatlarda da vurğulandığı kimi, "Komik folklor nümunələrində konflikt kəskin şəkildə fərqlənən müsbət və mənfi tərəflər yox, məhz orta mövqedə dayanan tərəflər arasında baş verir" [Kazımoğlu, 2006, s. 239]. Məhz bu xüsusiyyət gülüşün cəmiyyət daxilində kəskin qarşıdurma yaratmadan, gündəlik münasibətlər və ortaq dəyərlər çərçivəsində formalaşdığını göstərir. Beləliklə, həm ənənəvi, həm də müasir komik ifadələr regional kimliyi qoruyaraq onu yumor vasitəsilə yenidən istehsal edir və nəsildən-nəslə ötürür. Lətifələr yaş məhdudiyyəti olmadan hər kəs tərəfindən yaradıla bilər – həm yaşlılar, həm böyüklər, həm gənclər, hətta bəzən uşaqlar belə bu prosesdə iştirak edir. Bu isə göstərir ki, lətifə xalq yaradıcılığının canlı və daim yenilənən bir sahəsidir. Yeni yaranan lətifələr bir tərəfdən əyləndirici funksiya daşısa da, digər tərəfdən cəmiyyətin sosial-mədəni vəziyyəti, insanların düşüncə tərzi və gündəlik həyatı haqqında dəyərli məlumatlar verir. Məhz buna görə də bu cür nümunələr yalnız sadə yumor xarakteri daşımır, eyni zamanda sosial tənqid vasitəsi, psixoloji reaksiyanın ifadəsi və mədəni münasibətlərin bir növ güzgüsü kimi çıxış edir. Bəzi lətifələr insanı "təkcə güldürmür, güldürə-güldürə düşündürür, düşündürə-düşündürə güldürür" [Pirsultanlı, 2010, s. 70].

Müxtəlif yollarla yaranan yeni örnəklər zaman-zaman qədim folklor materialları cərgəsində özünə yer edir. Çünki folklor xalqın yaddaşında formalaşan, əsrdən-əsrə, nəsildən-nəslə ötürülən və cəmiyyətin mədəni kodlarını özündə cəmləyən zəngin bir xəzinədir.

## SEÇİLMİŞ LƏTİFƏLƏRİN TƏHLİLİ VƏ ŞƏRHİ

Bildiyimiz kimi folklorun mühüm janrlarından olan lətifələr daha çox yumoristik formada cəmiyyətin psixoloji, sosial və mədəni problemlərini əks etdirir. Folklorşünas alim Ramil Əliyevin təbirincə desək: "lətifələr ictimai həyatdakı və məişətdəki qüsurları, əks etdirən yığcam və gülməli hekayələrdir" [Əliyev, 2014, s. 199]. Bu janr əsasən qısa, məzəli və gülüş doğuran məzmunda olur. Eyni zamanda lətifələrdə tənqidi düşüncə, ictimai müşahidə və kollektiv yaddaşın şərhi də yer alır. Bu baxımdan lətifələr ictimai şüurun formalaşmasında mühüm rol oynayır.

Naxçıvan bölgəsindən toplanan lətifələr, öz dil, dialekt, həyat tərzi və lokal spesifikası ilə fərqlənir. Bölgəyə aid lətifələrdə yerli insanların gündəlik həyatının özünəməxsus halları və regiona məxsus sosial münasibətləri əks olunur.

Naxçıvanlılardan topladığımız yeni lətifələrdən bir neçəsini tədqiqata cəlb etmişik. "Yorulan şagird" adlı lətifədən oxuyuruq:

"Neçə illər imtahana çox hazırlaşan bir qız anasına deyir:

Ana, mən keçən il eşşək kimi oxuyurdum. Əslində bu il də eşşək kimi oxuyuram. Belə də ki, gözlərim də eşşəyin gözü kimi gözəldi. Deyəsən mən elə eşşəyəm" [Rzayeva, 2023, s. 109].

Bu nümunədə həm yumoristik hiss, həm də bir abituriyent və ya tələbənin yorğun halını görmək mümkündür. İlk baxışda gülməli görünsə də, altında ciddi bir yorğunluq hissi gizlənir. "Eşşək kimi oxumaq" ifadəsi xalq arasında çox və yorucu şəkildə dərs oxumağı, çalışqanlığı vurğulamaq üçün istifadə olunur. Folklorda yer alan bu tipli ifadələrdən çox işləyən zaman istifadə edilir. Məsələn: "eşşək kimi işləmək", "eşşək kimi oxumaq", "eşşək kimi yorulmaq" və s.

Qeyd edək ki, lətifələrin çoxu gerçək baş vermiş hadisələr əsasında yaranır. Yuxarıda göstərdiyimiz gülməli əhvalat da ana-balanın gerçək dialoqundan yaranmışdır. Biz də həmin ailədən, ananın öz dilindən toplamışıq. Toplama materialı olan bu lətifədə təhsil sistemi, zəhmət, nəticə və gənclərin özünüqiymətləndirmə problemləri incə yumorla təqdim olunur. Naxçıvan şəhər sakinlərindən topladığımız bu lətifə həm gülməlidir, həm də çox düşündürücüdür – bu da folklorun gücü deyilmi?

Aşağıda göstərəcəyimiz başqa toplama materialında nənə, övlad və nəvə arasında keçən dialoq əsasında yaranmış yumordur. "Elmi katib" adlı həmin yumordan oxuyuruq:

"Bir gün evin qızı gəlib evdə deyir:

İşdə Fatmanisəni elmi katib qoydular.

Anası soruşur:

Bala, elmi katib nə iş görür, vəzifəsi nədir?

Evdəki balaca uşaq qızın cavabını gözləmədən deyir:

Nənə, elə bil sizdə katibə işləyən Mehparənin elmi formasıdır" [Rzayeva, 2023, s. 105].

Bu materialı lətifədə sözü gedən nənədən toplamışıq. Nənə qızı və nəvəsi ilə qurduğu dialoqdan yaranan gülməli əhvalatı bizə danışdı. Göründüyü kimi bu əhvalat üç nəsil arasında – nənə, övlad və nəvə arasında qurulan dialoqdan yaranmışdır. Bu proses folklorun ailə içində ötürülmə mexanizmini göstərir. Bu qəbildən olan dialoqlar həm ailə münasibətlərini, həm də nəsillərarası fərqləri ortaya çıxara bilir.

Göstərilən toplama materialında övlad – informasiya daşıyıcısı (elmi katib xəbərini gətirir), nənə – sorğuçu (anlamadığı termini soruşur), lətifədə yer alan balaca, hazırcavab nəvə isə – naiv, amma yaradıcı təfsirçi kimi cavab verərək elmi katibi, katibənin elmi forması kimi izah etməyə çalışır. Burada biz həm xalqın dünyagörüşünün nəsillər arasında necə dəyişdiyini, həm də uşaqların hadisələrə öz baxış bucağını göstərdiyini müşahidə edirik.

Topladığımız bu gülməli əhvalat folklorun şifahi, ailəvi, humoristik və tənqidi qatlarını özündə birləşdirən gözəl nümunələrdən biridir. Bu əhvalatda balaca nəvənin söylədiyi fikir sadə olsa da, xalqın elmi və bürokratik anlayışlara necə münasibət göstərdiyini, uşaqların isə bunları necə mənimsədiyini çox incə şəkildə göstərir.

Yeni toplanan, diqqəti daha çox çəkən, bəzi çatışmamazlıqları ifşa edən örnəklərdən biri də "Əl falı" adlı lətifədir. Həmin lətifəyə nəzər yetirək:

"Bir yerə yığışanda bir nəfər deyir ki, əl falına baxıram. Kim istəsə əlini versin falına baxım. İstəyən əlini verir. Fala baxan soruşur:

– Neçə yaşın var?

25 (Fala baxdıran yaşını deyir).

Fala baxan qələmlə onun əlinə cizgilər çəkir. Sonra evlisən? neçə uşağın var? işləyirsən? Marağın nəyədi? nə yemək sevirsən? dostun varmı? ən çox sevdiyin kimdi? və s. bu kimi suallar verir cavablarını aldıqca əlini qələmlə cızmağa davam edir. Əlində boş yer qalmır. Axırda sual verir.

Ağlın varmı?

Qarşıdakı da əlbəttə var.

Fala baxan: Bəs onda niyə qoyursan əlini yazım?" [Rzayeva, 2023, s. 104].

Dostlar, yoldaşlar arasında gülüşə səbəb olan bu lətifədəki əsas fikir **insanın öz düşünmə qabiliyyətindən istifadə etməməsi, kor-koranə inanmaq** və **təfəkkürsüzlük** kimi halların tənqididir. Bu örnəkdə fala baxan sadəcə suallara əsaslanaraq qarşıdakı haqqında "fala baxır", əslində isə heç bir mistik və ya fövqəltəbii bilik yoxdur. Burada fala baxanın əsas məqsədi sondakı sualı verib cavabı almasıdır ki, ondan qabaq onun üçün cavabı önəmli olmayan məlumatları toplayır.

Bu lətifə gülüş vasitəsilə insanları xeyli düşündürür və bununla bərabər cəmiyyətin bir hissəsinin fala, qeyri-elmi düşüncələrə inamını göstərir.

Tədqiqata cəlb etdiyimiz bu lətifə sadəcə bir zarafat deyil, eyni zamanda bu nümunə xalqın düşüncə tərzini, inanclarını və gündəlik həyatına dair müdrik tənqidini özündə əks etdirir. **Satira, ironiya** və **məntiqsiz davranışın ifşası** bu kimi folklor nümunələrinin əsas silahıdır desək yanılmarıq.

Bu lətifədə bir çox funksiyanı da müşahidə edirik.

1. Tənqidi funksiya – bu funksiya batil inamları, inancları, eyni zamanda kor-koranə davranışları böyük ustalıqla tənqid edir.

2. Maarifləndirici funksiya – bu da öz növbəsində insanlara düşünmədən inanmağın, güvənməyin mənasızlığını açıq şəkildə göstərir.

3. Əyləndirici funksiya – hamının səbirsizliklə gözlədiyi sonluq gözlənilməz nəticə ilə hər kəsdə gülüş yaradır.

4. Sosial psixoloji funksiya – ən önəmli olan funksiyalardandır ki, bu özünü və cəmiyyəti güzgüdə görmək imkanı yaradır.

"Əl falı" adlı bu yeni lətifə, Naxçıvan bölgəsində formalaşan yeni folklor təfəkkürünün bir örnəyi kimi qiymətləndirilə bilər.

Naxçıvan bölgəsində lətifələrin müəyyən qisminin Nehrəm kəndi ilə bağlı yarandığını görürük. Burada da lətifələrin böyük qismi gerçək hadisələrdən yaranmışdır. Topladığımız nümunələrdən bir neçəsinə nəzər salaq: Bir tələbə həmin əhvalatı danışır:

"Bir gün Nehrəm kəndindən bir qonağımız var idi. O, evlərinə zəng vurmaq istəyirdi. Telefonu əlinə alıb nömrə yığır. Demək nömrədə 66 rəqəmi var. Xanım 6 rəqəmin birini yığır və bizdən ikinci 6-nın harada olduğunu soruşur".

Biz bu lətifəyə "İtən 6" və yaxud "6 axtarışda" adını da verə bilərik. Bu lətifəni **regionlar arası fərqlər, mədəni fərqlər** və **texnologiya ilə münasibət** baxımından da dəyərləndirə bilərik. Yəni mərkəz-şəhər və kənd arasında informasiya və texnoloji bacarıq fərqləri folklorun bu janrı vasitəsilə yumoristik şəkildə təqdim olunur.

Nehrəm kəndində baş vermiş hadisədən yaranan başqa bir əhvalatı informatdan topladığımız kimi təqdim edirik:

Nehrəm kəndində Nəcəfqulu adlı zabitəli bir kişi olur. Ailəsi bu kişidən yaman qorxur. Günlərin bir günü xanımlar oturub söhbət edirlər, biri gəlib deyir ki, durun qaçın Nəcəfqulu gəlir. Bu ailədə bir təzə gəlin var, bu kişini heç görməyib tanımır. Hamı qaçır, gəlin də qaçır. Nəcəfqulu ilə üz-üzə gəlir. Kişi soruşur:

Qızım, hara qaçırsan, nə olub?

Gəlin deyir:

Dayı, deyirlər Nəcəfqulu gəlir qaçın.

Kişi gülür və deyir:

O, mənəm sənlə işim yoxdu, sən qaçma.

Bu lətifəyə "Nəcəfqulunun əhvalatı" adını da vermək olar.

Topladığımız bu gülməli əhvalatda xalq gülüşünün sosial-psixoloji təbəqələri, kollektiv şüurda formalaşmış avtoritet obrazı və onun doğurduğu davranış modelləri yumoristik dillə verilmişdir.

Sosial və mədəni kontekst baxımından bu lətifə patriarxal ailə quruluşuna, kişi avtoritetinə və kollektiv davranış normativlərinə işarə edir. Nəcəfqulunun ailəsində yaratdığı qorxu ab-havası onun zahirən hökmlü, qəddar olduğunu göstərsə də, sonda onun gəlinə verdiyi cavabda həm mehriban, həm də təmkinli olduğunu görürük. Bu obraz folklorda "zahiri qorxulu, daxilən müdrik" kişi nümunəsidir.

## NƏTİCƏ

İnsan sağlamlığında və əhval-ruhiyyəsinin yüksək olmasında gülüşün çox böyük rolu var. Hətta xalq arasında deyirlər: "gülüş ömrü uzadır". Bunun üçün də lətifələrin, gülməli əhvalatların olması çox önəmlidir. Bu dünyada insan var olduqca yeni-yeni lətifələrin yaranması da davam edəcəkdir.

Təhlillərdən belə nəticəyə gəlinir ki, yeni yaranan folklor örnəkləri qədim folklor örnəkləri kimi dəyərli, qiymətli xəzinədir. Lətifələrlə bağlı aparılan araşdırmalar onu deməyə əsas verir ki, bu janr çox vaxt əsas hadisələrin baş verməsi nəticəsində yaranmışdır. Bizim topladığımız yeni lətifələr də gerçək hadisələrdən yaranan nümunələr idi. Bu nümunələr bəlkə də olmuş hadisələrdən yarandığı üçün hər kəsə daha cana yatan, daha səmimi, daha şirin gəlir. Lətifələrin gülüş xarakterli olması insanın əhval-ruhiyyəsini açır, ona müsbət təsir edir. Buna görə də belə gülməli əhvalatların itib-batmaması üçün toplanması çox əhəmiyyətlidir. Biz də bu məqalədə topladığımız lətifələrin müəyyən bir qismini təhlil süzgəcindən keçirdik.

## ƏDƏBİYYAT


Abbaslı, S. (2011). *Azərbaycan lətifələrinin regional xüsusiyyətləri*. Nurlan.

Əliyev, R. (2014). *Azərbaycan şifahi xalq ədəbiyyatı*.

Kazımoğlu, M. (2006). *Xalq gülüşünün poetikası*. Elm.

Pirsultanlı, S. (2010). *Azərbaycan folklorunda gülüş*. GDU.

Rzayeva, Ç. (2023). *Naxçıvan şəhər folklorundan örnəklər*. Əcəmi.



*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 12.01.2026**
**Son variant 23.02.2026**